Bədii tərcümə məsələləri: real mənzərə və problemlər

Əvvəli ötən sayımızda

Elnarə AKİMOVA



Vilayət HACIYEV

Rüstəm KAMAL

Rüstəm Kamal: - Ümumiyyətlə, poetik tərcümə prinsipcə mümkünsüzdür. O tərcümənin yazılmış və yazılmamış qanunudur.

Vilayət Hacıyev: - Bəli, bəli.

Rüstəm Kamal: - Dünyada tərcümədə iki yol var. Buna ruslar "bukvalistiy", yəni hərfi, bir də "tvorçeskiy", yəni yaradıcı, azad tərcümə deyirlər. Və hərfi tərcümədə də belə, yenə tərcüməçi özündən oraya nəyisə artırır. İstər-istəməz bədii tərcümədə mətnin əslinə qarşı həmişə bir zorakılıq olur. Çünki tərcüməçi milli ədəbiyyatın ənənəsinin içindən gəlir, istər-istəməz milli ədəbiyyatın həmin dövrün üslub ənənəsini nəzərə alır. Xüsusən, poeziyada nəzərə alırsan. Bu qaçılmazdır. Məsələn, mən oxumuşam Marşakın ingilis ədəbiyyatından tərcümələrini. Deyirlər ki, Marşak mükəmməl tərcüməçidir. Mən sizə açıq deyirəm, tutaq ki, Bernsin oynaq folklor üslubu onun tərcümələrində yoxdur. Gedin başqa tərcümələri də oxuyun, sanki bir adamın əlindən çıxıb.

Seyfəddin Hüseynli: - Marşak kimi yazıb hamısını.

Rüstəm Kamal: - Marşak kimi yazıb. İtalyancada tərcüməçi sözü ilə "traduttor" - "satqın" sözü oxşardır. Tərcüməçi həm də sanki bir satqındır. Sanki əsl mətnə qarşı bir satqınlıq eləyib. Tərcümə məktəblərilə bağlı da bir-iki söz deyim. Əvvəla, biz kiçik xalqıq. Bizdə müəyyən tərcümə ənənəsi olub. Əgər Orta əsrlərdən üzü bəri o ənənənin tarixi yazılsaydı, həmin ənənənin obrazını bərpa etmək olardı. Sadəcə bütün elmi informasiyalar Azərbaycan tərcüməsi ilə bağlı sistemləşdirilməyib, öyrənilməyib. Bizdə tərcümə nəzəriyyəsi ilə bağlı araşdırmalar rus nəzəriyyəsinin təsiri altındadır. Mən düşünürəm ki, tərcümə dövlət əhəmiyyətli məsələdir. Təhlükəsizlik baxımından əhəmiyyətli məsələdir. Və dövlətin öz kulturoloji istiqaməti olmalıdır ki, hansı tərcümələr bu xalqın mədəniyyətinin formalaşması üçün lazımdır. Mühüm mətnlər, yazıçılar var ki, ilk növbədə onlar mütləq tərcümə olunub dövriyyəyə buraxılmalıdır. Və zaman keçməməlidir. Elə əsərlər, elə müəlliflər var ki, artıq kimsə həmin müəllifin Nobel mükafatı laureatı olduğunu da yadına salmır. Məsələn, ki, Zaks adlı şair vardı, yaxud ilk nobelçiləri kim xatırlayır? Biz indi-indi onları tərcümə edirik və kitab bazarına çıxardırıq. Elə şeylər var ki, mən fikirləşirəm ki, türk dili bizə yaxın olduğuna görə, türk tərcümələri ilə əvəz etmək də olar. Amma o əsərlər ki, dilimizin fəlsəfəsini formalaşdırmalıdır, bizdə yeni yazıçı elitasının yaranmasına səbəb ola bilər, o mətnlər də seçilib ilk növbədə tərcümə olunmalıdır. Ondan ötrü qapını açıq qoymaq lazımdır. Nəşriyyatlar var-dövlətdən kənar. İndi kim sifariş edirsə, qoy eləsin. Qoy bazar tərcümə romanları ilə dolsun.

Seyfəddin Hüseynli: - Bazar da barı bir bazar ola...

İradə Musayeva: - Biz artıq ədəbiyyatı, doğrudan, bazarlaşdırmış olduq. Hamı, kim istəyir çap eləsin, kim istəyir gəlsin tərcümə eləsin. Yəni biznes işi deyil bu tərcümə, ən azından. Oxucu zövqünün birdəfəlik korlanması məsuliyyəti haqqında düşünən yoxdur deyəsən. "Qoy bazar dolsun" - hökmü ədəbi yaradıcılıq prinsiplərinə uyğun gəlmir axı...

Rüstəm Kamal: - Y.V.Çəmənzəminli 1929-cu ildə L.Tolstoyun "Dirilmə" romanını tərcümə edib. Roman arxivdə yatır. Onu Tolstoy sanki Azərbaycan dilində yazıb. Sonra həmin romanı bir başqası tərcümə edib. Nəyə görə ikisini də buraxmayaq?

İradə Musayeva: - Yaxşıdırsa, olsun. Bir sizin kimi ədəbi məsuliyyəti olan şəxs təsdiqləyəndən sonra qoy o da olsun, amma "kimin nəyi var, gətirin "bazara"- kimi ədəbiyyatda "açıq qapı" mərhələsi elan etmək düz deyil...

Azər Turan: - Yeri gəlmişkən, keçən Müzakirə Saatında Elnarə xanım, söhbətin sonunda Mahmud Kaşqarlı Divanınını xatırlatdı, "Divani-luğat it-türk" niyə bizim ədəbi-nəzəri fikrin mənbəyinə və tərkibinə çevrilə bilmir?" deyə ciddi bir məsələ qaldırdı. İndi də Rüstəm müəllim Çəmənzəminlinin arxivdə qalan tərcüməsini xatırlatdı. Söz-sözü çəkdi deyə bir neçə kəlmə demək istəyirəm. Məncə, bu, bütün Azərbaycan humanitar fikrinin diqqət mərkəzində olmalıdır. Uzun-uzadı müzakirə deyil, konkret şəkildə həll olunmalıdır. Türkiyədə Kaşqarlı Divanının tərcüməsi üzərində 1939-1941-ci illərdə çalışmış Besim Atalay Divanın ilk nəşrinin birinci cildində yazırdı ki, "Divani-luğat-it türk" Türkiyə dışındakı türkləri də ilgiləndirmişdir. Sovetlər Akademiyasının Azərbaycan qolu bir komissiya quraraq başqanlığına Xalid Səidi... gətirmiş və işə başlamış"dı. Milli türkşünaslıq tariximizdə belə bir nadir hadisənin - Xalid Səidin tərcümə etdiyi "Divani-luğat-it türk"ün bu günəcən nəşr edilməməsini düşünüb kim etiraf etməz ki, dünyada yalnız bu kitaba görə həyatı dərbədər olmuş, bu kitaba görə qanına qəltan edilmiş bir insanın - türk elminin nakam şəhidi Xocayevin çiləli ruhu hələ də 1937-ci ilin qanlı çarmıxından endirilməyib. Elə buna görə (həm də buna görə) Xalid Səidin tərcümə etdiyi mətn tədqiqatçıların xatırlatdığı kimi, hətta əgər "tərcümənin dili müasir dilimizin leksikası" ilə səsləşməsə belə, tarixi həqiqət və elmi ədalət və fakt naminə mütləq meydana çıxarılıb nəşr olunmalıdır...

Şübhə doğurmur ki, 1935-1937-ci illərdə Azərbaycanda tərcümə olunmuş "Divan"ın üzə çıxarılması Bakının dünya türkologiyasındakı nüfuzuna əsaslı təsir göstərə bilərdi. Çünki bu tərcümə dünyadakı ilk Divan tərcüməsidir. Amma biz bunu qoymuşuq bir tərəfə və ortaya çıxarmırıq. Mən bu barədə kitab da yazmışam. Xalid Səidin indi Kanadada yaşayan qızı Bəhicə xanımla da, professor Nizami Cəfərovla da bu barədə ətraflı söhbətimiz olub. Tapılması, ortaya çıxarılması üçün ehtimal çox böyükdür. İpucları əldədir. Məncə, hərəkətə keçməyin zamanıdır. İndi isə konkret olaraq Azərbaycan Yazıçılar Birliyi, Akademiyanın Ədəbiyyat İnstitutu, Nazirlər Kabinetinin Tərcümə Mərkəzi vaxt itirmədən bu tarixi işlə rəsmən məşğul olmalıdırlar.

Seyfəddin Hüseynli: - Bilirsiniz, bu bizim tərcümə işi tariximizin müəyyən yaralı epizodlarıdır. Sadəcə, doğrudan, maraqlı və faydalı faktlardır. Azər müəllim, çox sağ olun buna görə. Amma biz fikirləşməliyik, mənə elə gəlir bu dəqiqə ki, bu tərcümə işində bizim konsepsiyamız nədir? Mən də açığı pərakəndə sifarişlər və yaxud öz seçimim əsasında çoxlu xırda və iri materiallar tərcümə eləmişəm. Yaxud müəyyən konyunkturaya uymuşuq, kimsə buker mükafatı alıb, keçən ilin və ya bu ilin bukeridir, götürüb vermişik ki, maraqlı olsun. Bütün dünyada bu praktika var. Amma bizim tərcümə dərgilərimiz, yaxud mətbuatda tərcüməyə necə yanaşılır? Çox təəssüf ki, orada da konsepsiya bir xeyli uzaqda görünür. Yenə də özfəaliyyət, yenə də hansısa marağa qulluq. Ancaq ümumi axına nəzarət mümkündür, məncə...

Elnarə Akimova: - Kamran müəllim, istərdim siz bildirəsiniz fikrinizi. Konkret iradlar göstərildi burda, bir tərcüməçi kimi siz nələri təklif edirsiniz?

Kamran Nəzirli: - Düzgün qeyd elədiniz: bunu heç bir qanunla, heç bir qadağa ilə yoluna qoymaq mümkün deyil indiki zamanda. Amma belə müzakirələr təbii ki, o təsərrüfatsızlığın qarşısını ala bilər. Yəni, bu da ictimai qınağın bir formasıdır. Çox böyük təşəbbüsdür bu. Eşitdim İradə xanımdan, böyük məmnuniyyətlə razılıq verdim ki, bu məsələni müzakirə eləyək. Tərcümə sahəsindəki təsərrüfatsızlığın, xaotik mənzərənin müzakirəsi təkan verəcək ki, siz dediyiniz o ictimai nəzarət, o idarəolunma həyata keçirilsin.

Seyfəddin Hüseynli: - Mən inzibati idarəçilikdən danışmıram. Üzr istəyirəm, işlə bağlı praktik olaraq bir məsələni deyim. Bu özfəaliyyətçilik bir az da üzdən keçməmək, kiminsə xahişini-filan nəzərə almaq və s.ilə bağlıdır. Bunun da normal yolu var. Biz bu "Dünya ədəbiyyatı" jurnalının ki, ayrı-ayrı ölkələrə həsr olunmuş nömrələrini buraxırıq, burada maraqlı cəhdlər görürük. Yazırlar ki, qonorar verirsinizmi? Məsələn, jurnalist xanım tanışım var, vaxtilə bir yerdə işləmişik. Qardaşının rusca xatirələrini mənə verib ki, bəs sizin jurnalda çıxsın, filan. "Yox" demək olmur. Sadəcə yaxşı bir çarəsi var. Dedim ki, biz axı Ukrayna nömrəsini buraxırıq. Mən bunu necə çap eləyim? Müəyyən bir əlaqə yarada bilərsənsə, verək. O, avtomatik getdi. Bilirsiniz, adam öz işini müəyyən bir sistemli axına salıb görəndə oraya özfəaliyyət yol tapa bilmir. Daha sonra əyalətdən bir şair yazıb ki, mənim oğlumun ingiliscədən, özümün də ruscadan tərcümələrim var, çox xahiş edirəm, mən gələcəyəm, Yazıçılar Birliyinin rəhbərliyinə deyəcəyəm və s. Dedim indi biz fars nömrəsi hazırlayırıq. Farscadan bir şey varsa, gətirin. Bununla da mən öz adımı xilas edirəm.

Kamran Nəzirli: - Bu yaxınlarda bizim hörmətli professorlardan biri mənim hələ sovet dövründə tərcümə elədiyim Cek Londonun povestini olduğu kimi götürüb öz nəşriyyatında çap eləyib, üstündə də yazıb: işlədi professor filankəs filankəsov. Belə problemlər də var. Bizim dünyadan köçmüş tərcüməçilərimiz var. Mən hələ Bakıxanovdan, Axundzadədən danışmıram. Mən danışıram 70-80-ci illərin tərcüməçilərindən: Ənvər Rzadan, Zeydulla Ağayevdən... Bunlar bizim son 30-40 ildə tərcümə ədəbiyyatımızda önəmli rol oynamış şəxslərdir. Deməli, bunların tərcümə olunmuş əsərləri təzədən nəşr olunur, görürsən ki, heç bir yerdə adları getmir, familiyası verilmir. Sizin bayaqkı sözünüzə qüvvət, bəlkə biz bir tərcüməçilər İttifaqı yaradaq. Bəlkə elə tərcüməçilər haqqında kodeks, ya bir Tərcüməçinin peşə etikası barədə bir kodeks hazırlayaq? Maarifçilik baxımından faydalı olardı. Dünyada bu praktika var axı...

İradə Musayeva: - Senzura, komissiya kimi bir şey.

Kamran Nəzirli: - Tərcüməçinin peşə etikası...Ümumiyyətlə, tərcüməçi nəyi edə bilər, nəyi edə bilməz... Prosesdə hansı rolu oynayır... Hansı mövqedə dayanmalıdır... Müəlliflə tərcüməçi əlaqələri, yaxud iki tərəfin arasında duran körpüdə... özünü necə aparmalıdır və s. Əlbəttə, tərcümə fakültələrində bu məsələlər bəlkə də öyrədilir... Mən sırf məsələnin təşkilati-texniki tərəfini nəzərdə tuturam. İkinci bir mühüm məsələ: biz indi orijinal dildən, yaxud da rus dilindən (üçüncü dildən) dilimizə tərcümələr edirik. Amma bizim indiki durumumuz, ölkənin indiki iqtisadi vəziyyəti bunu deməyə əsas verir ki, indi öz ədəbiyyatımızın tərcümə olunmasına vəsait qoymalıyıq. Bu sahəyə daha çox diqqət yetirməliyik. Özümüzü rus dilinə, ingilis dilinə, fransız dilinə və sair dillərə tərcümə eləmək lazımdır. Axı nə qədər "ölü əsərlər"i, "ölü müəlliflər"i tərcümə eləmək olar? Sözüm ondadır ki, indi öz irsimizi tərcümə eləməliyik. Türkiyədə bildiyimə görə Mədəniyyət Nazirliyinin nəzdində Tərcümə Komissiyaları fəaliyyət göstərir. Misal üçün, bu xüsusi komissiyalar Yunus Əmrənin, yaxud Oraxan Kamalın, ya Orxan Pamukun əsərlərinin fransız, rus, ingilis və s. dillərə tərcümə edilməsi üzrə ayrı-ayrı işçi qruplarından ibarətdir. İşçi qruplarının hər birinə tanınmış, peşəkar tərcüməçilər (hətta xaricdən də mütəxəssislər cəlb edilir!) daxildir...

Seyfəddin Hüseynli: - Bizdə belə bir təşəbbüs varmı?

Kamran Nəzirli: - Bilmirəm. Amma elə bu da bir təşəbbüsdü də. Qaldıraq da... Elə bu müzakirədə...

Seyfəddin Hüseynli: - Qrup halında qoyulmalıdır da yəqin ki.

Kamran Nəzirli: - Bəli, bu təşəbbüsü biz qaldırmalıyıq... Yeri gəlmişkən, bir vacib problemi də qaldırmaq istəyirəm... Hər zaman imkan olmur danışmağa... daha çox ad və toponimlərin təqdim edilməsində baş verən "xaotik" mənzərə və təsərrüfatsızlıqdan. Təəssüf ki, bu problem nəinki bədii tərcümə sahəsini, eləcə də bütün növ tərcümə mətnlərini və sənədlərini əhatə edir. Hətta klassik tərcümələr də bu qüsurlardan xali deyil. Təkrar edirəm: bu, xüsusi problemdir və belə "xaotik" axının qarşısını almaq üçün bir çox dövlətlərdə xüsusi komissiyyalar da fəaliyyət göstərir. Əlbəttə, bu problemin aradan qaldırılmasında təkcə komissiyaların, yaxud da yenicə yaradılmış bizim Tərcümə Mərkəzinin məqsədyönlü fəaliyyəti ilə də kifayətlənmək olmaz. Düşünürəm ki, burada əhalinin xüsusi kateqoriyalarının, məsələn, televiziyalarda, qəzet və jurnallarda, saytlarda, nəşriyyatlarda və s. çalışan jurnalistlərin, tərcüməçilərin, redaktorların, korrektorların, elmi-tədqiqat işləriylə məşğul olan mütəxəssislərin də maariflənməsi vacib şərtdir...

İradə Musayeva: - Əlbəttə, mənim oxuduğum tərcümə əsərlərində də bu sahədə qüsurlar yetərincədir...

Kamran NƏZİRLİ

İlqar ƏLFİ

Azər TURAN

Kamran Nəzirli: - Əvvəla, xüsusi adların (şəxs və yer adlarının) həm xarici dillərə, həm də xarici dillərdən Azərbaycan dilinə düzgün transliterasiyası və transkripsiyası istər ədəbi dil normalarına riayət etmək baxımından, istərsə də orijinalın ruhunu əks etdirmək baxımından böyük önəm daşıyır. Bunu təkcə tərcüməçilər yox, həm də bayaq qeyd etdiyim xüsusi kateqoriyadan olan sənət adamları da nəzərə almalıdı.

Vahid prinsip gözlənilməlidir də...Təəssüf ki, indiyədək nə elmi-nəzəri mənbələrdə, nə dillə bağlı yaradılmış komissiyalarda xüsusi adların, toponimlərin düzgün təqdim edilməsiylə bağlı tədbirlər görülür, nə də nəzarət mexanizmi var. Əlbəttə, nəzərə almalıyıq ki, transliterasiya sözlərin uyğun qaydalara əsasən başqa dilə çevrilməsidir. Linqvistikada bu, mətnin, yaxud sözün bir yazı sistemindən digərinə sözbəsöz, ya da hərfbəhərf çevrilməsidir. Söhbət fonoloji transkripsiyadan gedəndə sözün fonemlərlə verilməsində səslərin qarşılıqlı təsiri nəzərə alınmır. Buna baxmayaraq, tərcümə mətnlərində linqvistik baxımdan həm transliterasiya, həm də transkripsiya qaydaları kobud şəkildə pozulur və ədəbi dil normalarına xələl gəlir. Qeyd edim ki, bu xüsusi problem nəinki bədii tərcümə mətnlərini, habelə tarixi, elmi, siyasi, iqtisadi mətnləri də əhatə edir, nəticədə xüsusi adların daşıdığı informativ məna yükü oxucuya yanlış çatdırılır.

Bir-iki misal çəkəcəyəm: götürək Azərbaycan-ingilis, ingilis-Azərbaycan xüsusi adlarının transliterasiya və transkripsiyasını və onlar arasındakı fərqləri. İngilis dilindəki "Robin Hood" Azərbaycan dilinə Robin Qud kimi yox, Robin Hud kimi transliterasiya olunmalıdır. Bu ad uzun illər bütün tərcümə mətnlərində "Qud" kimi təqdim olunub, halbuki məhz "hood" (hud) kimi transliterasiya olunmalıydı. Çünki Orta əsrlərdə əfsanəvi ingilis Robin Hud bütün mənbələrdə qarətçi-cəngavər, varlı adamlardan qarət etdiklərini kasıblara paylayan şəxs kimi göştərilir və əslində onun soyadındakı "Hood" sözünün çoxsaylı mənaları olsa da, əfsanəvi qəhrəmana yaraşan mənası "dəbilqədir", yəni cəngavərlərin başa qoyduğu dəmir dəbilqə. Göründüyü kimi, onu "Qud" kimi transliterasiya etməklə həm sözün, həm də personaj kimi qəhrəmanın pafoslu semantik xüsusiyyəti itib. Yaxud "Hemingway" Azərbaycan dilinə Heminqvey kimi transliterasiya olunmalıdır. Hemingway-İngiltərədə Yorkşir şəhəri yaxınlığındakı kiçik bir yaşayış məntəqəsinin adıyla bağlıdır, bir mənası da yaxşı yol, uğurlu yol deməkdir, vaxtilə Heminqveylərin nəsli də həmin ərazidən çıxıb, müqəddəs kilsə olan ərazidən, yaxşı yol adlanırmış və s. İndiyə kimi tərcümə olunan bütün mətnlərdə yazıçının familyası transliterasiyada yox, transkripsiyada verilir, yəni "Heminquey" kimi. İngilis dilində "double-u" (w) hərfi transliterasiyada "v" kimi, transkripsiyada isə müxtəlif vəziyyətlərdən asılı olaraq v, ua, ue, ui kimi tələffüz olunur. Transkripsiya onların hamısını (ue, ui, yaxud ua) diftonqlar şəklində yazır. Transliterasiya isə onları ayırır. Nəzərə alaq ki, Azərbaycan dilində cütavazlı səs-diftonq yoxdur, yalnız bəzi fonetik hadisələr zamanı xalq danışıq dilində diftonqlaşma hadisəsi baş verir. Digər tərəfdən sonrakı səsdən asılı olaraq ingilis dilindəki "w" hərfi bəzən v kimi, bəzən ue kimi, bəzən də ua və ui kimi tələffüz olunur. Bütün bunlar transkripsiyanın işidir, lakin xüsusilə şəxs adlarının və toponimlərin transliterasiyasında bu məcburiyyət yoxdur. Buna görə də tələffüz zamanı Azərbaycan dilinə zor işlətməyə ehtiyac qalmır. Düşünürəm ki, xüsusi adlar çevrilməməlidir. İngilis dilində "William", "Wilde" və b. adları da bu qəbildəndir, Azərbaycan dilinə transliterasiyada "Vilyam" və "Vayld" kimi təqdim olunmalıdır. Təəssüf ki, yuxarıda qeyd etdiyim təsərrüfatsızlıq sovet dönəmindən bəri davam etməkdədir. Orijinal dildəki ad və toponimlər orijinal dildəki kimi yazılmalı və oxunmalıdır. Belə olan halda heç kim cürət edib əcnəbiyə Qarabağı "Karabakh", yaxud da "Naqorniy Karabakh" formasında təqdim etməz. Bəzi tərcüməçilər ad və soyadların Azərbaycan dilindən ingilis dilinə transliterasiyası zamanı şəxsi adlara daxil olmayan ayamaları da tərcümə edərkən yanlışlıqlara yol verirlər. Məsələn, Qoç Koroğlu, Tülkü Qasım, Keçəl Həmzə, yaxud da Qara Tofiq, Dəli Domrul adlarındakı ləqəb və ayamaların hərfi tərcüməsini verirlər. "qoç" deyəndə "igid, cəsur" anlamını vermək əvəzinə yazırlar ki, "ram", yaxud "dəli" sözünü "crazy, mad" kimi, "tülkü" sözünü isə "fox" kimi verirlər. Əslində isə hər üç sözün məna çalarına, müsbət, yaxud mənfi mənada işlənməsinə diqqət yetirilməlidir. "Qoçaq, igid, mərd, cəsur" mənalarında olan sözləri ingilis dilinə tərcümə edərkən, yaxud əksinə təqdim edərkən ehtiyatlı olmaq lazımdır. "Qara Tofiq" deyəndə də onu sözün həqiqi mənasında "Black", yəni rəng mənasında yox, "böyük", "başçı" mənalarında izahını vermək lazımdır. Bu barədə tərcüməçilərlə, redaktor və korrektorlarla maarifləndirici söhbətlər aparılmalı, bəlkə də xüsusi kurslar təşkil edilməlidir...

Rüstəm Kamal: - Gənc tərcüməçilərlə "master klaslar" keçirilməlidir, Kamran müəllim. Ustad dərsləri olmalıdır. Tərcüməçilər bəs harada yetişməlidir? Bəzən universitetdə tərcümədən dərs deyən müəllimlərin özləri ömründə bir cümlə tərcümə etməyiblər. Bu adamlar gəlib bədii tərcümədən dərs deyirlər. Yəni tərcümə nəzəriyyəsindən mövzu götürüb, pis-yaxşı müdafiə edib, indi gəlir tərcümədən dərs deyir. Ona görə də araşdırılmalıdır ki, son illərdə, məsələn, bizim universitetlərdən neçə tərcüməçi çıxıb. Fərqi yoxdur, texniki tərcüməçi, elmi tərcüməçi, bədii tərcüməçi, biznes tərcüməçisi və s. Bunlar özləri - Vilayət müəllim, İlqar müəllim artıq klassiklərdir.Yəni onları tərifləmək üçün demirəm, masterdilər. Bunlar dərslər keçməlidirlər. Tərcümə mərkəzinin nəzdində ayda bir dəfə, həftədə bir dəfə ustad dərsləri olmalıdır.

Seyfəddin Hüseynli: - Masterdilər, amma "klass"ları yoxdur, doğrudan da....

İlqar Əlfi: - Bilirsiniz, bax, mən tərcümə nəzəriyyəsini oxumuşam, ixtisasca tərcüməçiyəm. Fars dili tərcüməçisiyəm. Amma ondan bir şey yadımda qalmayıb. Və mənim tərcüməmdə kara gələcək bir şey bilmirəm. Hamısını fəhmlə eləyirəm. Çünki yoxdur ortada bir kitab. Tərcümədə müəllif, ana dili və ortada tərcüməçi - bu dilemma var. Hansı neçə faiz olmalıdır? Mən həmişə deyirdim ki, tutaq ki, mən indiyə qədər 40 müəllif tərcümə eləmişəm. Hərdən görürsən ki, bizim öz yoldaşlarımız oxuyub deyir, "a bax, bunu nə gözəl tərcümə eləmisən". Bu biri deyir "ay İlqar, bu yaman bekara tərcümədir". Bunun hamısını İlqar eləyibsə, İlqar bacardığını onsuz da qoyur. Sadəcə, bu müəllif sənə yaxındır, bu yox. Mən Tomas Manı necə "südlü sıyıq" eləyim verim sənə qaşıqla yeyəsən?

Kamran Nəzirli: - Bizim bəzi klassik yazıçılarımızın sətri tərcümələri kimi... Yəni o cür əsərləri yenidən tərcümə etməyə dəyər.

Elnarə Akimova: -Bu yaxınlarda 100 cildlik "Fikir antologiyası" seriyasından tərcümə edilmiş Nitsşenin "Hakimiyyət əzmi" kitabını oxumaq istədim. İnandırım sizi ki, ordakı Nitsşe deyildi. Olduqca bəsit şəkildə tərcümə olunmuşdu Nitsşe. Yaxud "Dünya ədəbiyyatı" seriyasından tərcümə olunmuş nümunələrdə hətta fəhmsiz oxucunun belə sezə biləcəyi qüsurlar var. Y.Əmrəni elə təqdim ediblər ki. Yəni, Əmrəni tərcüməyə nə ehtiyac var?

Rüstəm Kamal: - Tam razıyam sizinlə, o Əmrə deyil.

İradə Musayeva: - Doğrudur, tərcüməçi müəllifin izini itirirsə çox pisdir, sevdirəndə isə özü də hörmətlə xatırlanır. Və oxucu sonda iki adama minnətdarlıq duyğusu ilə ayrılır. Müəllifə və tərcüməçiyə. Mən məsələn, Kamran müəllimin Svetlana Aleksieviçlə bağlı "Müharibənin qadın üzü yoxdur" əsərinin tərcüməsini oxudum. Kamran müəllimi şəxsən tanımırdım, birinci dəfədir ki, görürəm. Amma əsəri oxudum və əsərin tərcüməsi o qədər yaxşı təsir elədi ki, Svetlana Aleksieviçin bu əsəri ilə bağlı yazdığım "Müharibə qadınının ədəbiyyatı" adlı məqaləmin sonunda da olsa, yazdım: "P.S. Bu əsəri Kamran Nəzirli çox böyük məhəbbət və sevgi ilə dilimizə tərcümə edib". Doğrudan da, əsərin ruhunu ötürüb bizə. Biz söz, cümlə düz olanda şükür edirik bə-

İradə MUSAYEVA

Seyfəddin HÜSEYNLİ



Fərid HÜSEYN

Davamı 18-ci səhifədə

Bədii tərcümə məsələləri: real mənzərə və problemlər

Əvvəli 17-ci səhifədə

zən, amma yaxşı tərcümələrdə ruh, ovqat, sevgi və nifrət də tərcümə oluna bilir. Korney Çukovski yazırdı ki, yaxşı tərcümələrdə təbəssüm və səmimiyyətin də tərcüməsini hiss etmək olur. Bir cümlə ilə də olsa özümə borc bildim bu zəhməti, özü də keyfiyyətli zəhməti qiymətləndirməyi. Markes tərcüməçilərindən nə qədər narazı olsa da, insafən deyirdi ki, "tərcüməçilik haqqı ən pis şəkildə ödənilən peşədir". Çünki yazıçı ilə bərabər tərcüməçinin də zəhməti paralel gedir. Həmin şeyi Vilayət müəllimə də dedim ürəyimdə... Vilayət Hacıyevə... "Zəfər tağı"nı təzə qurtarmışam, oxuya-oxuya Vilayət müəllimə təşəkkür etdim, ürəyimdə. "1984" romanını oxuyanda həmin o "ürəyində", "dodaqaltı" təşəkkürü, səmimi minnətdarlığı Vilayət Quliyevin də ünvanına səsləndirdim... Elə tərcümələr də var ki, oxuya-oxuya axtarırsan ki, görüm bunun tərcüməçisi kimdir. Sanki "cinayətkar" axtarırsan...

Elnarə Akimova: - Haynenin maraqlı bir fikri var: "Orijinalın hərfini, hətta dəqiq fikrini qrammatikanı öyrənib söz ehtiyatına malik olan hər kəs tərcümə edə bilər. Lakin əsərin ruhunu tərcümə etmək hər adamın işi deyil". Bədii tərcümə sahəsində günümüzdə bir çox problemlər və çatışmayan cəhətlər var. Zənnimcə, əsərin ruhu daha çox ikinci dildən tərcümə zamanı ölür. Ona görə nəzərə alaq ki, Vilayət müəllim ikinci dildən tərcümə eləmir, birbaşa birinci dildən tərcümə edir. Bu amil isə əsərin əsl mahiyyətini, ruhunu, forma və məzmun keyfiyyətini qorumağa, ondakı bədiilik məziyyətlərinin orijinala uyğun səviyyədə alınmasına təsir göstərir. Mən də Svayqın "Bəşəriyyətin bəxt ulduzları" kitabını Vilayət müəllimin tərcüməsində oxumuşdum, uğurlu tərcümə idi.

Fərid Hüseyn: - Elnarə xanım, birinci dil, ikinci dil məsələsi ilə bağlı qısaca deyim. Məşhur bir tərcümə nəzəriyyəçisi var - Hans Vermer adında. Bunun məşhur bir nəzəriyyəsi var. Dünyanın təxminən 60 ölkəsində bunun nəzəriyyəsi keçirilir. Skopos nəzəriyyəsi deyilir. O, orada nə yazır? Məsələn, maraqlı bir fakt kimi. Bizdə o yoxdur. Ona görə mən bunu vurğulamaq istəyirəm. Yazır ki, ana dili var və əlavə dil var. Tərcümə təbii ki, bu iki dilin arasında gedir. Və burada norma belə olmalıdır ki, tərcümə elədiyin dil ana dili - əsas dildir. İkinci dil öz dilin köməkçi dili olmalıdır. Amma bizdə tərcümədə bunun yeri qarışıq düşüb. Bizdə əsas dil kimi götürürük öz dilimizi. Yəni öz dilimizdə necə səslənir bu tərcümə. Və heç bir tərcüməçinin, demək olar ki, Azərbaycanda elədiyi tərcümədə orijinalla yoxlanılma deyilən bir şey yoxdur. Bu yaxınlarda mən Türkiyədə TEDA-da oldum. Can yayımları var. Onlarda ayrıca dillər üzrə ekspert fəaliyyət göstərir. O ancaq oturub cümləbəcümlə yoxlayır ki, nə isə düşməsin.

Seyfəddin Hüseynli: - Şura, komissiya kimi də.

Fərid Hüseyn: - Bizdə məsələn, Mahir Qarayev demişdi ki, "Qoca və dəniz"dən yerlər düşüb. Baxdım ki, doğrudan antalogiyada o əsərin bəzi yerləri düşüb.

İlqar Əlfi: - Düşüb deyəndə, çıxarıblar də...

Fərid Hüseyn: - Dünya ədəbiyyatının çoxcildliyi çıxıb Azərbaycanda. Mən onun demək olar ki, axır 3-4-ündən başqa hamısını oxumuşam. Və bu tərcümələrin, istisnaları çıxmaq şərtilə, çoxu topa təsiri bağışlayır. Məsələn, oxuyan kimi bilirsən ki, 15-i bir adamın yazısıdır, 20-si bir adamın yazısıdır. Tərcüməçilərdə üslub duyumu yoxdur. Konkret oxuyursan tərcüməçiləri, görürsən ki, tərcüməçilərin əksəriyyətində bu var. Müxtəlif müəllifləri eyni cür tərcümə edirlər. Bədii dil ilə bağlı normalar bizdə eyni dərəcədə kalkalaşıb ki, bu sözü bu cür işlədə bilməzsən bu səhvdir. Dilin imkanlarına elə bil ki, qadağa qoyulub. Görürsünüz, müxtəlif tərcümələrlə bağlı yazılara baxın. APİ-də də bir neçə kitab buraxıblar. Mən onlara baxdım. Biz yalnız tərcüməni Azərbaycan dili səviyyəsində qiymətləndiririk. Bu Azərbaycan dilində necə səslənir. Görmüsünüzmü ki, hansısa yazıda orijinal variantda olmasına baxıla? Məsələn, mən bir şey deyim ki, İlqar müəllim eləyib, hesab edirəm ki, yaxşı da eləyib, Saramaqonu baxmayaraq ki, bəyənmir. Türkiyə ilə bağlı deyim. Orada "Qırmızı kedi" nəşriyyatı var. Saramaqonun bütün setini eləyib. Oradan mən oxuyanda Azərbaycanca "İsanın "İncil"ində vur-tut olsun 50 snoska. Amma türkcədə 250-300 snoska var. Necə ola bilər ki, Azərbaycan tərcüməçisi 50 snoska ilə izah edir onu, türk tərcüməçisi isə 250? Deməli, bizim mətnlər nə redaktor tərəfindən, nə də tərcüməçinin özü tərəfindən şərh edilmir. Adlar tərcümə olunur, adların heç bir izahatı verilmir. Burada bir bəlli məqam da var, mən istəyirəm onu deyim. Tərcümənin yaradıcı sahə olması dönə-dönə vurğulanır. Amma burada bir məsələ var və o kitabdan mən sizə deyirəm. Yaradıcı sahə ifadəsi əslində burada çox da yerinə oturan və əlqola imkan verən məsələ deyil. Nə mənada? Ona görə ki, birinci orijinal tekst var və deyək ki, Bethovenin əsərini bir dirijor idarə eləyirsə, orada da o təbii ki, çalışır ki, kimisə təkrarlamasın. Və yaxud da Qoqolu 200 dəfə səhnəyə qoyan rejissor çalışır ki, hər dəfə öz üslubunu qoysun. Amma tərcüməçiyə bu imkan verilmir, qoymalısan.

İradə Musayeva: - Azərbaycan tərcüməçisinin bir böyük problemi də var. Tutaq ki, bir milyondan yuxarı lüğət fondu olan ingilis dilini 80 000-lik sözün içinə gətirmək istəyir. Bizim 80 000 sözümüz var. İndi akademiya qərar qəbul edib ki, gəlin bunu 100 000-ə çatdıraq, lüğət fondumuzu. O da şəkilçilərin, dialekt sözlərin köməyilə. Tutaq ki, 500 000-lik rus dili lüğəti, bir milyondan yuxarı ingilis dili lüğəti...

İlqar Əlfi: - İki milyon ərəb dili lüğəti fondu ...

İradə Musayeva: - İki milyon? O qədər böyük bir dil materialını kiçik lüğət imkanları ilə uzlaşdırmaq da çətindir. Üç litrlik suyu bir stəkana yerləşdirmək absurdluğu var burada... Həm də istəyirik ki, xoşumuza gəlsin...

Fərid Hüseyn: - Dillərin imkanları təbii ki, bir-birinə bab ola bilməz. Çünki dil təfəkkür hadisəsidir. Məsələn, Dədə Qorqudu ərəb dili təfəkkürünə çevirmək mümkün deyil. Deyək ki, "Min bir gecə"ni də tam olaraq bizim təfəkkürə çevirmək mümkün deyil. Ona görə ki, biri kök dildir - ərəb dili, ona görə də onun məntiqindən doğur. Görürsünüz, əhvalatlar bir-birinin içindən çıxır. Bizim dil də iltisaqi dildir. Dədə Qorqudda əsas hissə var, sonrakı hissələr ona birləşir: Boy da o məntiqlə çıxır. Əsas iki hadisə var: İç oğuz, Dış oğuz məsələsi var. Yerdə qalan hissələr ona birləşir. Bu təfəkkürdən yaranmış dil hadisəsidir. Bunu bir-birinə çevirmək olmaz. Edqar Allan Podan məşhur bir şeri var: "Quzğun". Onunla bağlı özünün şerinə kommentariyası var. Orada o bütün sözlərin mənasını göstərir. Elə bil ki, öz şerinin lüğətini hazırlayıb. Çünki o göstərir ki, məsələn, mən "əslə" sözünü siz duyduğunuz anlamda işlətməmişəm. Və onun tərcüməsi yalnız o halda mümkündür. Bu da təbii ki, dünyada mümkün deyil ki, bütün yazıçılar otura, özünün izahlı lüğətini hazırlaya. Və yaxud Orxan Pamukun əsərində elə söz var ki, əsər boyu romanın içərisində gəzinir o söz. Amma bizim dildə belə bir şey var ki, xoşagəlməz haldır ki, bir cümlədə, bir abzasda bir söz bir neçə dəfə təkrarlansın. Bax o sözü qəsdən çox işlədə-işlədə axırıncı məntiqlə gətirib bağlayır. Amma sən onu o şəkildə versən, Azərbaycan oxucusu, Azərbaycan redaktoru, bir sözlə, hamı ağız əyəcək.

Kamran Nəzirli: - Fərid bəzi məsələlərə toxundu, mən də müdaxilə eləmək istəyirəm. Həm klassik Amerika ədəbiyyatında, həm ingilis klassikasında, ümumiyyətlə, klassik yazıçılarda belə bir üslub vardı. Onlar öz əsərlərinə çoxlu futnotlar (izahatlar) verirdilər. Bu izahatlardan qaçmaq ya qorxmaq da lazım deyil. Misal üçün Melvilin "Mobi Dik" əsərini mən tərcümə eləmişəm Azərbaycan dilinə. Dünyanın 10 ən ağır və çətin əsərlərindən biridir. Bu əsərdə 200-dən çox futnot-izahat var, özü də yazıçının öz izahatları. Və məncə, bunları da tərcümə edib vermək lazımdı.

İlqar Əlfi: - Amma Melvil indi yazsa, ora ya üç dənə də snoska qoymazdı. Çünki oxuyan olmazdı snoskaları.

Kamran Nəzirli: - Bunlar həm də informasiyadır, oxuyan oxuyacaq...

Rüstəm Kamal: - Tərcümədə sitilizasiyadan da qaçmaq olmur. "İqor polku haqqında dastan"ı kimi verilib. "Slova o polku İqroveye". Halbuki, "slovo" sözünün rus dilində 18 mənası var. Təkcə bu sözün... Amma bizdə "dastan" kimi veriblər. Mətn təxminən 500 misradan ibarətdir, adını dastan qoymusunuz, bu hara, o biri mənalar hara... "Polk" sözünün də bir neçə mənası var, biri də "poaxod"dur - yürüş... Onlarda "yürüş"dür, bizdə "polk" kimi işlədiblər. O əsərin az qala 70 faizi xristian kilsə-ilahiyyat mətnlərindən allüziyalar, gizli sitatlar, (axı Orta əsrlər rus mətnləri belədir...) məsələn, "qara buludlar", - "İncil"dən gələn metaforadır.

Kamran Nəzirli: - Düzdür, məsələn, bizim ekvivalent kimi qəbul elədiyimiz sözlər müxtəlif xalqların leksikonunda müxtəlif təsəvvür, müxtəlif assosiasiyalar yaradır. Tutaq ki, hər bir dildə "ev", yaşayış məskəni mənasını verən söz var, amma onun xarici görkəmi, daxili quruluşu barədə təsəvvürlər müxtəlifdir: istər ingilisin, istərsə də uzaq Afrika cəngəlliklərində yaşayan tayfaların təsəvvüründə "ev" anlayışı müxtəlif assosiasiyalar doğurur...

Rüstəm Kamal: - Elə tərcümə var ki, orda poeziya var, müəllifin özü yoxdur, eləsi də var ki, müəllif var, poeziya, şeriyyət yoxdur. Qalırsan belə... Dünya ədəbiyyatından tərcümələr çox olmalıdır və onun tənqidi də olmalıdır. Dili, üslubu və başqa problemləri ilə bağlı. Milli tərcümə nəzəriyyəsi yaranmalıdır. Düzdür, yaxşı tərcüməçilər var. Amma onların özlərinin tərcümə ilə bağlı nəzəri qeydləri yoxdur. "Tərcüməçinin dəftəri", "Tərcüməçinin qeydləri", varmı bizim tərcüməçilərdə?

Vilayət Hacıyev: - Düzdür, məsələn, mənim yoxdur...

İlqar Əlfi: - Heç, təəssüf ki, məndə də yoxdur...

Rüstəm Kamal: - Kamran müəllim bilər, o vaxtlar, sovet dövründə rus dilində kitablar çıxardı: "Tetrad perevodçika"... Orda nəzəriyyəçilərin, alimlərin dəyərli fikirləri olurdu. Onlar öz laboratoriyasından çıxış edərək, bəzi mətləbləri aydınlaşdırırdılar. Bizdə də Tərcümə mərkəzi ildə bir dəfə belə "Dəftərlər" buraxa bilər. Orda İradə xanımın da, Elnarə xanımın da, Vilayət müəllimin də tərcümə ilə bağlı yazıları, esseləri, tərcüməçi etüdləri çap oluna bilər. Bu qeydlərin tərcüməçilərə köməyi ola bilər. Məktəb nə cür yarana bilər? Praktika ilə nəzəriyyə birləşəndə.

Kamran Nəzirli: - Elmi-tədqiqat işi yazan var tərcüməçiliklə bağlı?

Elnarə Akimova: - M.Rəfilinin, B.Nəbiyevin, K.Talıbzadənin, N.Babayevin, F.Qasımzadənin, A.Hacıyevin və b. əsərlərində tərcümə bu və ya digər yöndə işıqlandırılıb.

Rüstəm Kamal: - Bir məsələyə də toxunmaq istəyirəm. Eşitdiyimə görə Türkiyədə, məsələn, tərcümə ilə məşğul olan tələbələrin də kitablarını çap edirlər. Bizdə bir var, özəl nəşriyyatlar, cüzi qonorarla tərcüməçini işlədir, bir də var, dövlətin nəzarəti, qayğısı və dəstəyi. Bu zaman - dövlət təşkilatında mənə elə gəlir ki, aidiyyəti adamlar cəmlənməli və araşdırmalıdır ki, bu dəqiqə bu millətə son onildə hansı mətnlər daha çox gərəklidir. Elə mətnlər var ki, gecikmişik, zamanı keçib, daha onları tərcümə eləməməliyik. Geniş oxucu kütləsi qoy nəyi oxuyur-oxusun. Onsuz da keçidlərdə, çoxlu türk müəlliflərinin kitablarını bəh-bəhlə alıb oxuyurlar. Beşinci dərəcəli türk yazıçısının kitabını oxuyurlar.

Elnarə Akimova: - Bəzən də hansısa yazıçının üçüncü sort araşdırmaçısının əsərini tərcümə edib dövriyyəyə ötürürlər. Nəyə yarayır bu tərcümələr? Əvəzində dünya səviyyəsində tanınan elm adamları var, məsələn, Duqin, Sidorov, Qraçeva, Devid Ayk və b. bizim çağdaş oxucuya adı bəlli deyil.

İradə Musayeva: - Düz deyir Elnarə xanım, bizdə elmi əsərlərin tərcümə prosesi demək olar ki, yoxdu.

Rüstəm Kamal: - Əcnəbi kitablara bir axın var. Mənim tələbə qızım da o kitabları alıb oxuyur. Yaxşı tərcümələrin reklamı olmalıdır. Yaxşı işlərə qiymət də verilməlidir, yaxşı mətnlərin təbliğatı olmalıdır. Bayaq İradə xanım Remarkın tərcüməsindən danışdı, Vilayət müəllimin gözəl tərcüməsindən. Mən də oxumuşam Remarkı. "Mənim dostum Remark" adlı bir yazı yazırdım.

İradə Musayeva: - Siz də yazmısınız Remarkdan?

Rüstəm Kamal: - Bəli. Tələbə vaxtı Remarkı çox sevirdim, onun əsərlərində o qədər içki adları sadalanır ki... Üzr istəyirəm, bir dostumu heyrətləndirmək üçün o içkilərdən birini almaq istədim. Remarkın kitabındakı bütün içki adlarının siyahısını tutmuşdum. Sovet dövründə gəzdim bütün maqazinləri, soruşdum, tapmadım.... Sonra o əhvalat haqqında yazı yazmaq istəyəndə Remarkı bir də oxudum. Doğrudan da gözəl tərcümədir, Vilayət müəllimin tərcüməsi.

Kamran Nəzirli: - Məncə, xalq içində geniş yayılmış sözlərin də, coğrafi mühitə, mədəniyyətə, maddi məişətə, yaxud millətə, ölkəyə aid əşya, anlayış və hadisələrin adlarını da tərcümə, yaxud transliterasiya edərkən yerli və tarixi koloriti nəzərə almaq lazımdır, çünki belə leksik vahidlərin başqa dillərdə qarşılığı yoxdur. Bu tip sözlərə dilçilikdə realilər, yaxud da ekzotik sözlər deyilir, onların milli mənsubiyyəti olur. "Xan", "bəy", "kələm dolması", "lülə kabab", "kəndxuda", "şəkərbura", "xurdxəşil" və s. yüzlərlə söz və ifadə vardır ki, bunların tərcüməsi, yaxud transliterasiyası zamanı çox vaxt çətinliklər yaranır. Tərcüməçi hər iki dildə müvafiq qaydalara riayət etməklə yanaşı, çətin anlaşılan sözlərin, coğrafi adların, ayama və ləqəblərin, ekzotik sözlərin də tərcümə və transliterasiyasında izahlar verməli, yaxud da köməkçi materiallardan istifadə etməlidir.

Elnarə Akimova: -Bəli, çox olur ki, tərcüməçi məhz həmin xalqın hansısa adəti, ya yalnız onlara məxsus olan frazeoloji birləşməsi, qanadlı ifadələri ilə bağlı bilgisizliyindən səhvlərə yol verir.

Vilayət Hacıyev: - Fərid müəllim tərcümənin bir qlobal probleminə toxundu. Əslində söhbət bu ətrafda olmalıydı. Yəni tərcümə əslində, ana dili üçün olmalıdır məsələsi... Hər hansı bir əsəri məhz, Azərbaycan oxucusu üçün tərcümə edirik. Məsələn, vaxtilə bu üsuldan istifadə edirdilər: Tutaq ki, Kafkanı bir zalda 20 adama oxuyurdular. Sonra onun tərcüməsini o zalda oxuyurdular və ondan alınan təsiri, effekti testlər vasitəsilə müəyyənləşdirib tərcüməyə qiymət verirdilər.

Ümumiyyətlə, əsas ana dil götürülməlidir. Ana dilində necə səsləndirmək məsələsi əsasdır. Artıq bir neçə müəllifin eyni cür səslənməsi isə başqa problemdir.... Amma bilməliyik ki, məsələn, Hesse, Kafka Remark deyil. Mən istəsəm də, Remarkın lirik-psixoloji anlarını Hesseyə yeridə bilmərəm. Kafkanın bədii ifadə vasitələrindən "kasıb" olan nəsrini obrazlı deyim tərzi ilə ifadə etmək mümkünsüzdür...

Rüstəm Kamal: - Bütün dünyada belədir. Hətta Rusiya kimi oturuşmuş, təmərküzləşmiş, tərcümə mədəniyyəti olan ölkədə də bəzən elə mətnləri tərcümə edirlər ki, adam təəccüb edir.

Elnarə Akimova: - "Patriarxın payızı"nı mən də 2-3 il əvvəl olar aldım, oxuya bilməyib, yarımçıq qoydum. Sonra rus dilində oxumağa çalışdım, gördüm bu dildəki tərcümə də uğursuzdu.

Seyfəddin Hüseynli: - Hələ "İnostrannıy"a elə mətnlər yol tapır ki... Bu vicdan məsələsidir. Ümumi prosesdə qarşısıalınmaz problemdir.

Rüstəm Kamal: - Özlərinə hörmət qoymurlar...

İradə Musayeva: - Seyfəddin müəllim, bayaq mən dedim ki, ən yaxşı tərcümədə belə nöqsanlar olur və biz o nöqsanları deməkdən, yazmaqdan çəkinməməliyik. Vilayət müəllimin tərcüməsi ilə bağlı... Bu, əslində işin xeyrinədir. Amma bəzi adamlar düşünür ki, məsələn, filankəs yaxşı tərcüməçidirsə, o qüsurlara "xırda" deyib üstündən keçmək olar. Mən isə belə düşünmürəm... Biz çox vaxt ideallaşdırdığımız, əfsanələşdirdiyimiz tərcüməçilərin əslində ədəbiyyata ziyanını unuduruq. Mən indi sizə eksperiment üçün bir balaca tərcümə nümunəsi oxuyacam. Tərcümənin müəllifini elan etmədən. Fikrinizi bildirərsiniz.

"... orada yuxarıda atası çönəndə, ulduzların işığında onun çöhrəsiz, cisimsiz, ətsiz-qansız, sanki tənəkdən kəsilmiş yastı qaraltısını, əynindən tökülən uzun ətəkli pencəyini, dəmir bükülülərini gördü. Səsi təbəqə kimi bərk və yastıydı" (U. Folkner. "Yanğın" s. 16). "Çöhrəsiz, cisimsiz, ətsiz-qansız qaraltı", "tənəkdən kəsilmiş qaraltı", "pəncə kimi irəli uzanmış əl", "quduz gərginlik", "təbəqə kimi bərk və yastı səs" - bu ifadələri anlamaq üçün təxəyyülə nə qədər güc versək də, baş ağrısından başqa bir nəticə hasil olmur. "... indi isə zərbənin özü də, zərbənin ardınca atasının təhqiredici dərəcədə rəvan, sakit səsi ilə uşağın qulaqlarında cingildəyir, lakin ona heç nə izah eləmirdi; **bu zərbə və atasının səsi olsa-olsa, bir şeyi - uşağın köməksizliyini, yaşadığı illərin çəkisinin cüziliyini izah edə bilərdi, bu çəki kifayətdir ki, qoynunda çapaladığı dünyadan qopub ayrılmağa qoymasın onu, ancaq kifayət deyildi ki, ona öz ayaqları üstündə möhkəm dayanmaq, bu dünyaya müqavimət göstərərək, onun axırında nəyisə dəyişmək imkanı versin" (s. 19), " - bax, belə evdə yaşayasan! - və bunu qibtəsiz-filansız, özünə dərd eləmədən, əlbəttə ki, uzun ətəkli qara pencəyin dəmir bükülülərin addımlayan o kor hikkədən, paxıllıqdan doğan qəzəbdən xali düşündü" (s.20 -21) - Bəmbəyaz! Gözəl! - dedi).** - Nolsun. Bu ki, tərdi. Zənci təri idi. Yoqin bu ev üçün zənci təri kifayət qədər ağ deyil. Onlara həm də bizim tərimiz gərəkdi..." (s 23); "Onların qalın və sönük səslərində ümidsiz tənbəllik duyulurdu"(s 23).

Kamran Nəzirli: - Mən şəxsən heç nə başa düşmədim.

İlqar Əlfi: - Yox, mən başa düşdüm, başa düşdüm ki, tərcüməçi heç nə başa düşməyib...

Seyfəddin Hüseynli: - Nadir Əbdürrəhmanlının tərcüməsidir?

İradə Musayeva: - Deməli, bu əlimdəki qovluqda 6-7 tərcüməçinin ayrı-ayrı kitablarından konkret səhifələrinə qədər göstərilən misallar var.

Rüstəm Kamal: - İradə xanım, o qeydlərinizi, misallarınızı versəydiniz mən bununla bağlı məqalə yazardım...

İradə Musayeva: - Bu oxuduğum parça bizim əfsanələşdirdiyimiz, milləşdirdiyimiz Natiq Səfərovun tərcüməsindən idi. U.Folknerin hekayələrinin tərcüməsindən. Bu faktlar tərcüməçinin Azərbaycan dilini bilməsinə şübhə oyadır bizdə. Görürsünüz, burda konkret fakt var. Mənim topladığım qeydlər bir tərcüməçiyə aid deyil, yalnız. Burda Tehran Vəliyevin tərcüməsindən, məsələn, Folknerin "Avqust işığı" romanının tərcüməsindən, Zahid Sarıtorpağın "Uliss"i tərcüməsindən, Əlisa Nicatın və başqalarının...

İlqar Əlfi: - Məndən də var, İradə xanım?

İradə Musayeva: - Var, əlbəttə imkan olsa oxuyacam. Çak Palanikin Amerika həyatından bəhs edən "Döyüşçü klubu" əsərini rus dilindən Firzə Heydərli tərcümə edib. 256 səhifəlik kitabdır. Kitabı oxumaq "əsrdən uzun gün" müsibətinə çevrilib. Mən bu barədə məqalə də yazmışam. Ümumiyyətlə, tərcümə problemləri ilə bağlı konkret faktların təhlilinə əsaslanan 5-6 məqalə yazmışam və çap olunub. Diqqət edək: " Böyük yaş sifət mənim təpəmə sıxılır, məhz bu vaxt, adətən, mən ağlamağa başlayıram. Mən təkəm və ətrafda qaranlıqdır. Özgə hərarətlə əhatələnib, heç nə görməyəndə ağlamaq asandır, onda başa düşürsən: bu həyatda nəyə nail olursan ol, hər şey gec, ya tez heç olacaq." (s 13) "Təpəyə sıxılan böyük yaş sifət" hansı obrazlılıq, məcazlılıq prinsiplərinə uyğundur? "Onun arxasında şalvar qəmli torba kimi sallanıb" (s 16) "Kloi mənim boynuma nəfəs alırdı. İstənilən kişi ilə. Maraqlıdır, onların yanına kimləri buraxırdılar? " (s.17). "Ancaq yenə də o haqlıdır - birinci mən simulyantlıq etməyə başladım. Əlbəttə ki, əgər bütün bu adamlar öz işlərini, əzablarını simulyasiya etmirsə. Hətta Böyük Bob, bu nəhəng sığır, bu piy parçası - simulyantlıq edir." (s. 22) "Kinomexaniklər, ümumiyyətlə, özlərinə çox şeyi imkan verə bilər. Bəzən göstərən bobində siqnal olmur. " (s. 28) və s... Nöqsanları qabardanda adamlar inciyir, axı özünüz də görürsünüz ki, bu tərcümələr ədəbiyyat adına yazıla bilməz.

Vilayət Hacıyev: - Qətiyyən, İradə xanım! İnciməməliyik. Bu işin xeyrinədir.

İradə Musayeva: - Biz üstünü vurmadıqca, ört-basdır etdikcə, hələ oxucu zövqünə vurulan zərbəni qoyuram bir kənara, həmin kitablar təkrar-təkrar çap olunur həmin bərbad vəziyyətdə. Oturuşmuş, təsqiqlənmiş tərcümələr kimi... Baxın, burda hamınız, professional tərcüməçilərsiniz. Yəni, həqiqətən, inandığımız... Bu misallara reaksiyanız da göstərdi ki, fakt ən yaxşı, ən düz meyardır. Tehran Vəliyev, Allah rəhmət eləsin, Folknerin ən yaxşı tərcüməçisi kimi tanıdılır.

İlqar Əlfi: - Selencerin...

İradə Musayeva: - Yox. Folknerin "Avqust işığı" romanının tərcüməsindən gedir söhbət. İstəyirsiz, misallar göstərim.

Seyfəddin Hüseynli: - İradə xanım, vallah bu ümumi mexanizmin düz qurulmamağındandır.

İradə Musayeva: - Biz hər şeyə "ümumi mexanizm" prizmasından baxmamalıyıq. Söhbət ədəbiyyat və onun problemli sahəsi olan tərcümədən gedir, zərgər dəqiqliyi tələb edən bir yaradıcılıq sahəsindən. Mən deyirəm ki, əksinə, biz bu tərcümələri söz-söz, cümlə-cümlə, səhifə-səhifə aydınlaşdırmalı, qiymətləndirməliyik. Tərcümə tənqidi yoxdur, qoy ədəbiyyatşünaslar, yazıçılar etsin bu işi. Tənqidçilər etsin və onlara maneçilik olmasın heç olmasa... Mən, məsələn, lap bir oxucu kimi niyə bu kitabları, bu tərcümələri qəbul etməliyəm? Niyə mənim ədəbi-estetik zövqümü, dünya ədəbiyyatına olan marağımı korlayırlar?

Kamran Nəzirli: - İradə xanımın misallarında çox ciddi əsaslar var.

Seyfəddin Hüseynli: - Folkner elə öz dilində də çətindir.

İradə Musayeva: - Diqqət etdinizsə, mənim misallarımda problem yüksək meyarlar deyildi, yəni, əsərin üslubunu, ruhunu, estetikasını tərcümə etmək və s. Sadəcə adi cümlə qurmaq, fikri ibtidai formada da olsa çatdırmaq qabiliyyətindən gedir söhbət.

Seyfəddin Hüseynli: - İradə xanım, sizin, mənim o tərcümələrlə bağlı "Oxu zalı"nda çıxan yazılarımızdan sonra "Qanun" nəşriyyatının direktoru Şahbaz bəy həmin 6 kitabı qaytardı geri, tərcümə müəlliflərinə, yenidən tərcüməyə... Mənə də dedi.

İradə Musayeva: - Siz bu tənqidləri dəstəkləməlisiniz, etiraz etməməlisiniz...

Seyfəddin Hüseynli: - İradə xanım, mən tənqidləri təqdir edirəm, çünki tərcümə də tənqidin bir sahəsidir. Amma ümumi çıxış yolu deyil...

İradə Musayeva: - Yeganə çıxış yolu deyil. Amma yollardan biri də budur.

Elnarə Akimova: - Biz bu gün məsələyə daha çox birtərəfli yanaşdıq. Yəni, başqa dildən bizim dilə tərcümə məsələsindən danışdıq, daha çox. Bəs bizim öz əsərlərimiz necə? Məsələn, hamımızın yolu düşür başqa ölkələrə. Elə bir toplularımız varmı ki, biz onu ürəklə apararaq, ədəbiyyatımızı təbliğ edək? Yəni, öz məhsulumuzun dünya bazarına çıxışı hansı şəkildə reallaşmalıdır. Bəzi imkanlı yazarlar öz qayğılarına qalırlar, yaxşı-pis tərcümə etdirirlər öz əsərlərini. Bəs, o zaman Mikayıl Müşfiqi, Əhməd Cavadı, Üzeyir Hacıbəylini, C.Məmmədquluzadəni, Molla Pənah Vaqifi və digər milli ruhda yazan klassiklərimizin əsərlərini kim tərcümə edib dünyada tanıdacaq?! Məhz, bu sahəyə dövlət tərəfindən ciddi diqqət və dəstək göstərilməlidir.

İlqar Əlfi: - Maqsud İbrahimbəyovun oğlu Murad rejissordur. O gün gəlib, bir povestin tərcümə eləmişəm onun. "Azərbaycan" jurnalında çıxacaq. Bu adam azərbaycanca bilmir, amma görürəm ki, ürəyi yanır, istəyir ki, rusca oxusun. Deyir, İlqar müəllim, kimləri oxuya bilərəm? Dedim, Nəriman Nərimanovu oxuyun, Çəmənzəminlini, Haqverdiyevi oxuyun. Deyir "onlar rusca var?" Deyirəm, vallah, bilmirəm, sovet dövründə yəqin olub. Deyir bəs indi niyə yoxdu? Hüseyn Cavid niyə yoxdu? Deyirəm, Hüseyn Cavid tərcüməyə gəlmir. Onu qoyaq bir qırağa.

Azər Turan: - Qırağa niyə qoyaq ki. Cavidin "İblis"inin ruscaya tərcüməsi vardı. Özü də kim tərcümə etməyə başlamışdı? Lev Nikolayeviç Qumilyov...

Elnarə Akimova: - Bəs Müşfiq, Vaqif...

İlqar Əlfi: - Yox e, şairləri də qoyaq bir qırağa. Biz hətta Çəmənzəminlinin yaradıcılığını başqa dildə qoya bilməmişik ortaya... Tərcümə çox çətin şeydir. Respublikanın yarısı rusca bilir, biz bu gün 10 nəfər fərli-başlı tərcüməçi tapa bilmirik ruscadan. Mən əlimi qoyum ürəyimin üstünə deyim ki, tapacam, mümkün deyil. Siz indi bizim ədəbiyyatın xarici dilə tərcüməsindən danışırsınız. 200 il var ona.

Rüstəm Kamal: - Etimad tərcümə edib Jirmunskinin "Tyurkskiy qeroyoskiy epos" kitabını. Yaxşı tərcümə eləyib. Ancaq orada o qədər terminlər, yer adları var ki, dəqiqləşməliydi.

Azər Turan: - Biz Türk ədəbiyyatından məsələn Nəcib Fazil Qısakürəyi tamam təhrif edib veririk Azərbaycan oxucusuna. Bu məsələ barədə ayrıca məqalə yazmışam. Təkrar o məsələyə qayıtmaq istəmirəm. Yaxud Azərbaycanın görkəmli bir şairinin şerini Türkiyə türkcəsinə çevirib gəlib burda onu bəh-bəhlə bizə sırıyanlar da bizim şairimizin Türkiyə oxucusu üçün bəsitdən bəsit hala saldıqlarının fərqində olmur. Bu elə ciddi məsələdir ki, bir az da maddi yönlərini kənara qoymaq gərəkdir bu işlərin. Maddi qazanc önəmli olmamalıdır.

Elnarə Akimova: - Bəs klassik ədəbiyyatın tərcümə problemlərini necə reallaşdırmaq olar?.

Seyfəddin Hüseynli: - Tərcümə ilə bağlı qrant müsabiqələri təşkil etmək lazımdır. Biz təzə bir qitə kəşf eləmirik. Ruslar, türklər, iranlılar, bizə yaxın olanları deyirəm, hər yerdə bunu eləyirlər. Müsabiqə elan olunur, dünya səviyyəsində heç olmasa ən prestijli tərcüməçilər, əlbəttə, daha çox pul istəyirlər. Amma orta səviyyədə, ən azı bizi qane edəcək səviyyədə müsabiqələrdə iştirak edə bilərik.

İradə Musayeva: - Seyfəddin müəllim, bayaq da ianədən dediniz. Bu elə işdir ki, buna dövlətin köməyi, diqqəti, marağı lazımdır. Niyə xırda köməklərə bel bağlayaq? Qoy dövlət dəstəyini biz arzu edək... Düzdür, deyə bilərlər ki, dövlət Tərcümə Mərkəzini yaratdı. Amma görürük ki, bu prosesin ağırlığı və idarəolunmazlığı bu Mərkəzin sədlərini dağıdır. Mərkəz nə qədər yaxşı işləsə də, bu böyük prosesi nəzarətdə saxlaya bilməz.

Seyfəddin Hüseynli: - Dövlət xətti ilə olur də. Dövlət xətti ilə müsabiqələr təşkil edilir. Qrant müsabiqələrini təkcə QHT-lər deyil, həm də dövlət səviyyəsində təşkil edilir.

İlqar Əlfi: - Ümumiyyətlə, tərcümə əslində, ikinci dil deməkdir. Bax, Azərbaycan ədəbiyyatının Rusiyaya çıxması həmişə necə olub. Həmişə "padstroçnıy perevod" olub, rus dilini gözəl bilən adam sətri tərcümə edib, rus yazıçısı onun üzərində işləyib. Elə olmalıdır. İdeal tərcümə yoxdur.

Rüstəm Kamal: - Bəzən tərcümə orijinaldan gözəl olub. Məsələn, Yuri Kazakov Nurpeisovun məşhur "Tər və qan" romanını möhtəşəm tərcümə edib. Bunu kazaxlar da deyir, ruslar da deyir, Kazakov da deyib ömrümün neçə ilini ona verdim.

İradə Musayeva: - İlqar müəllim, çox təəssüf ki, klassik ədəbiyyatla bağlı mütəxəssis gəlməyib. Siz fars dilini bilirsiniz də. Əslində biz istəyərdik ki, klassik ədəbiyyat tərcüməçilərindən kimsə olsun. Məsələn, Nizami ilə bağlı poetik tərcümə olsun, filoloji tərcümə olsun və s. Hətta Xəlil Yusifov Nizami Gəncəvini əruzla tərcümə edib. Və izahlar da verib. Mən demirəm ki, o yaxşı, ya pis eləyib. Mən variantları deyirəm.

İlqar Əlfi: - Nizami Gəncəvini Ərdəbil universitetində bir professor var, bəlkə də indi rəhmətə gedib. Burada Nizami ilə bağlı Mövlananın tədbiri keçiriləndə o da gəlmişdi. Klassik alimlərdəndir. Bu insan 40 ildir Nizaminin təfsirini yazır. Hələ təfsirini yazır haa! 35 cild yazıb qurtarıb, deyir Allah ömür versə, 5 cild də yazacam. Deyir İlqar ağa, sizdə bu qədər professor var, Nizamidən bunlar necə alimdirlər, fars dilini bilmirlər axı. Bunu başa düşmürlər.

Fərid Hüseyn: - Burada iki adam eyni məqama toxundu, ona görə bunu deyirəm. Mənə sovet dövründən bəri absurd gəlib, sonra da müasirlərimizdə də bəzən görmüşük. Bu sətri tərcümə, Rüstəm müəllim bayaq dedi, bizdə Azərbaycanda bu necə olur. Konkretləşdirək. Deməli, sətri tərcüməni dili biləni ona görə verirlər ki, o poeziyanı bilmir, amma dili bilir. Mənanı başa düşür və verir. Təzədən onu şair çevirir şerə. Yəni dili bilməyəndə şerə çevirir. İndi poeziyanı bilməyənlə dili bilməyənin müttəfiqliyindən hansı uğurlu iş yarana bilər?

İlqar Əlfi: - Ona görə də müzakirənin əvvəlindən dedik ki, poetik tərcümə, şeir tərcüməsi məsələsi absurd bir şeydir.

Azər Turan: - Mən dəqiq bilmirəm, "İrşad" qəzetində 1905-ci ildə Azərbaycanda Hafizi kim tərcümə edib. Amma kimdirsə, tərcüməçinin imzası M.Ə.R. kimi təqdim olunub. Bu tərcümə qəzetin felyeton qismində "Hafizdən tərcümə" adı ilə təqdim edilmişdi. M.Ə.R. Hafizin gözəl və mənalı şerini hərcmərc etmişdi. Azərbaycanda buna böyük təpkilər oldu. "Dövre qəmər"lə "dövri-qəmər" sözləri qarışıq salınaraq qəzəl, qəzəldəki fikir viran qoyulmuşdu. Dövrlə, zamanla dairə qarışıq salınmışdı. O dövrdə mətbuatda Əbülhafiz imzası ilə tənqidçilik edən müəllifin kimliyini ədəbiyyatşünaslar bilir. Mən indi bunu təkrarlamaq istəmirəm. Əbülhafiz deyirdi ki, Hafiz divanını tərcümə edənin ən azı ya Seyid Əzim Şirvani, ya da Molla Pənah Vaqif qədər bir şairlik istedadı olmalıdır. İngiliscədən Şekspiri almancaya Şiller tərcümə edirdi. Farscadan Hafizi alman dilinə Höte tərcümə edirdi. Əbülhafiz xatırladırdı ki, Höte alman dilində yazmış olduğu "Hafiznamə"sinin başında öz kəlamından olan bir rubailə deyir ki: "Kəlamı bəy və mənanı gəlin fərz etsək, bunların toyunu, izdivacını ancaq o adam dərk edə bilər ki, Hafizi-Şirazinin qədr-qiymətini bilmiş ola!.." M.Ə.R. toyu matəmə çevirmişdi. Dərk etdiyi bu qədər olmuşdu yəni.

Elnarə Akimova: - Çox sağ olun. Bu gün çox böyük bir ədəbiyyat məsələsinin, probleminin çözülməsi üçün zəhmət çəkib gəldiniz. Bütün dəyərli fikirlərinizə və təkliflərinizə görə təşəkkür edirik. Şekspirin alman dilinə məşhur tərcüməçisi Avqust Şlegelin tərcüməylə bağlı belə bir fikri var ki, "tərcümə - ölüm-dirim savaşıdır. Və bu savaşın sonunda ya tərcümə edən, ya da tərcümə olunan uduzur". Arzu edək ki, heç kim uduzmasın. Nə yazar, nə də onu tərcümə edən. Çünki keyfiyyət məhz, bu halda baş tutur.